## Görkəmli şəxsiyyətlərin fikirləri

Keçmiş zamanlarda Azərbaycan təkcə indiki hüdudlarda deyildi. İndi Ermənistanın əlində olan Göyçə mahalı da, yaxud sizin İqdırın qarçısındakı Vedibasar, Zəngibasar, İrəvan xanlığı da Azərbaycanın olubdur. Sizin ulu babalarınızın əksəriyyəti oralardandır. İqdırda yaşayanlardan soruşsan ki, kökün haradandır, hər on nəfərdən dördü - beşi deyəcək ki, ya Zəngibasardan, ya Vedibasardan, ya İrəvandan, yaxud Borçalıdan, ya da Gəncədəndir, Naxçıvandandır. (Müzəffər Gəncə bildirdi ki, mən gəncəliyəm, babam oradandır) Necə olub ki, sən Gəncədən İqdıra gedib çıxmısan? Çünki o məntəqə, o bölgə azərbaycanlılar üçün - Türkiyədə azərilər deyirsiniz - azərilər üçün həmişə bir məskən olubdur. Bunların tarixi kökləri var. İqdırın Azərbaycana daha əziz olması və sevilməsi, bax bu tarixi köklərəəsaslanır. Siz gəncsiniz, kitablar oxuyursunuz, mən də bunların bir hissəsini kitablardan bilirəm. Amma bir hissəsini şəxsi həyatımdan bilirəm.

*****

Əgər tarixi faktları araşdırmalı olsaq, onda xatırlatmalıyam ki, indiki Ermənistan ərazisi vaxtilə Azərbaycan torpaqları idi və bu yerlər tarixən Azərbaycan xalqına məxsus olmuşdur. Tarixi sənədlər göstərir ki, bu coğrafiya bizim mədəni və tarixi irsimizin vacib hissəsini təşkil edir.” Bu fikir Azərbaycanın tarixində Qərbi Azərbaycanın rolu və əhəmiyyətinə diqqət çəkir.

**Heydər Əliyev,**
*Ümummilli Lider*

Qərbi Azərbaycan bizim tarixi torpağımızdır; bu, bir çox tarixi sənədlər və xəritələr tərəfindən sübut olunur. Əfsuslar olsun ki, burada tarixi və dini abidələrimiz dağıdılıb, lakin tarix və sənədlər bunu dəyişdirə bilməz.” Bu sitat Qərbi Azərbaycan məsələsinin milli tarix kontekstində əhəmiyyətini vurğulayır.

*****

Ermənilər Qarabağda olduğu kimi Qərbi Azərbaycanda da bizim bütün tarixi və dini abidələrimizi yerlə yeksan etdilər və azərbaycanlıların tarixi irsini silmək istədilər, lakin buna nail ola bilmədilər.” Burada tarix və mədəni irsin qorunması və tənəzzülü məsələsi qeyd edilir.

*****

Bu torpaqlarda şəhərlərin və kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşamışdır.

*****

Biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıb. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpağımızdır. Biz qayıdacağıq.

*****

İrəvan Ermənistana Azərbaycan Xalq Cümhuriyyəti yarananda, məhz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmişdir. İrəvan xanlığında yaşayan insanların əksəriyyəti azərbaycanlı idi. Zəngəzur mahalında yaşayanların hamısı azərbaycanlı idi. Ona görə, tarixi baxımdan da bu, bizim torpağımızdır.

*****

Biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Qərbi Azərbaycan İcmasının yaranması tarixi zərurətdir, çünki müxtəlif dövrlərdə azərbaycanlılar bu torpaqlardan deportasiya olunublar və onların ata-baba yurdlarına qayıtmaq hüququ mənəvi və hüquqi baxımdan qorunmalıdır.

**Cəfər Cəfərov,**
*Professor*

Qərbi Azərbaycanda daş kitabələr, memarlıq abidələri məzar daşları üzərində yaşadığımız torpağa bizə vətəndaşlıq hüququ verən pasportlarımızdır. Bu abidələr ermənilərə "bu torpaqda mənim babam yaşamışdır, səninki yox" deməkdir.

**Məşədixanım Nemət,**
*Tarix elmləri doktoru*

Qərbi Azərbaycan mövzusu mənə doğmadır. Mən ömrümün bir hissəsini Qərbi Azərbaycan mövzusuna - indiki Ermənistan toponimlərinin tədqiq edilməsinə həsr etmişəm. Dünya bilməlidir ki, Ermənistan ərazisində yerləşən və bu gün dünya ictimaiyyətinə "qədim erməni abidələri" kimi təqdim olunan qədim yaşayış məskənləri qalıqlarının, nekropol və kurqanların, qala, saray və qəsrlərin, karvansara, körpü və dini məbədlərin çox böyük əksəriyyəti Azərbaycan xalqına məxsusdur...

**Budaq Budaqov,**
*Akademik*

Qərbi Azərbaycan ərazisi Azərbaycanın tarixi torpaqları olmaqla, buradakı qədim və orta əsrlər maddi mədəniyyət nümunələri də xalqımıza məxsusdur. Lakin Sovet dövründə həmin abidələri Azərbaycan abidələri kimi tədqiq etmək obyektiv səbəblər üzündən mümkün olmadığından ermənilər də onları özlərininkiləşdirmək, dünyaya öz abidələri kimi təqdim etmək yolunda xeyli irəli getmişlər.

**Süleyman Məmmədov,**
*Tarix elmləri doktoru, professor*

Azərbaycanın maddi mədəniyyət nümunələrinin bir hissəsi bu gün Qərbi Azərbaycan adlandırdığımız indiki Ermənistan ərazisindədir. Lakin təəssüf ki, bu abidələr tədqiqatçılarımız tərəfindən vaxtında öyrənilməmiş və bundan istifadə edən həmin əraziyə gəlmə ermənilər o abidələrin bir hissəsini məhv etmiş, bir hissəsini isə erməniləşdirməyə çalışmışlar. Lakin daşlara yazılmış yaddaşı pozmaq və ya dəyişmək yadellilərə heç də həmişə nəsib olmamışdır. Dünya bilməlidir ki, "qədim erməni mədəniyyəti" deyilən bir anlayış kökündən uydurmadır və Qərbi Azərbaycan ərazisindən tapılıb dünya ictimaiyyətinə sırınan bütün yeraltı və yerüstü maddi mədəniyyət nümunələri əslində Azərbaycan xalqına məxsusdur...

**Vəli Əliyev,**
*Tarix elmləri doktoru, professor*

Bu gün Ermənistan Respublikasının yerləşdiyi ərazi 180 il bundan əvvəl Azərbaycan torpağı idi. Ermənilər isə Cənubi Qafqaza gəlmə, daha doğrusu, gətirilmə etnosdur. bu etnosun yaşadığı "Ermənistan Respublikası" adlanan ərazi isə Azərbaycan torpağıdır. Azərbaycan xalqı yaşadıqca, bu həqiqət də yaşayacaqdır.

**Yaqub Mahmudlu,**
*Tarix elmləri doktoru, akademik*

Artıq bütün dünya ictimaiyyəti yaxşı bilir ki, vaxtilə indiki Ermənistan respublikası adlandırılan ərazilərdən ötən əsrin əvvəllərində terrorçu daşnaklar vasitəsilə hədə-qorxu və zorla köçürülən, eləcə də müxtəlif zaman kəsiyində keçmiş ittifaq rəbərliyi tərəfindən öz dədə-baba yurdlarından məcburi deportasiya edilmiş insanlar öz evinə, elinə-obasına qayıtmaqda qəti şəkildə israrlıdırlar. Soydaşlarımızın Qərbi Azərbaycandan kütləvi deportasiyasına dair əsl hüquqi-siyasi qiyməti xalqımızın Ümummilli Lideri Heydər Əliyev vermişdir. Ulu Öndərin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-i ərazisindən, tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli fərmanı böyük elmi-siyasi, tarixi əhəmiyyətə malik sənəddir. Sənəddə açıq və aydın şəkildə qeyd edilir ki, keçmiş SSRİ Nazirlər Sovetinin müvafiq qərarlarına əsasən, Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olub. Təkcə bu cinayət aktının həyata keçirilməsi nəticəsində 150 mindən çox azərbaycanlı kütləvi şəkildə və zorakılıqla sürgünə məruz qalıb.

**Vaqif Şadlinski,**
*Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi*

Bir zamanlar Şuşaya, Qarabağa qayıdışa inanmırdılar. İndi həmin düşüncələr Qərbi Azərbaycana qayıdışla bağlı da var. Mən 2001-ci ildə həmin ərazilərə səfər etmişəm. Orada demək olar ki, məşkunlaşan yox idi. Ona görə də Qərbi Azərbaycana qayıdışla bağlı ümidli olmalıyıq və 44 günlük müharibədə Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə zəfərə nail olduq. Gəlin, Qərbi Azərbaycana qayıdışa ögey yanaşmayaq və hər birimiz bu məsələdə əlimizdən gələni edək.

**Misir Mərdanov,**
*Professor*

Qərbi Azərbaycan bizim dədə-babalarımızın yurdudur, bu torpaqların adları və mədəni irsi azərbaycanlıların qədim yaşayışını sübut edir və bu regionda yaşayan xalqın tarixi unudulmamalıdır». Bu fikir tarixi və etnoqrafik dəlillərlə üst-üstə düşür.

**Qasım Hacıyev,**
*Tarix elmləri doktoru, professor*

Millətçi, təcavüzkar Ermənistanda – tarixən Qərbi Azərbaycan ərazisi sayılmış bu coğrafiyada min illər boyu yaşamız soydaşlarımızın etnik mövcudluğuna son qoyulması və onların mədəni irsinin məhv edilməsi son bir əsrdə dövlət siyasəti səviyyəsində gerçəkləşdirilmişdir. Nəticədə, azərbaycanlıların bu ərazilərin tarixi və əzəli sakinləri olduğunu sübut edən izləri yox etmək üçün məqsədyönlü şəkildə, kütləvi vandallıq aktları törədilmişdir. 1988-ci ildən başlanan sonuncu etnik təmizləmə nəticəsində on minlərlə azərbaycanlı ailəsinin əmlakı və mədəni irs nümunələri də ermənilər tərəfindən qarət edilmiş, mənimsənilmişdir. Bundan başqa, Qərbi Azərbaycanın qədim toponimləri bütünlüklə erməni adları ilə əvəzlənmişdir.

**Faiq İsmayılov,**
*Professor*

Qərbi azərbaycanlılar olaraq indiki Ermənistan ərazisində itirilmiş hüquqlarımızı bərpa edəcəyik.

**Məlahət İbrahimqızı,**
*Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri,*
*Milli Məclisin deputatı*

Bu gün Ermənistan Respublikasının yerləşdiyi ərazi 180 il bundan əvvəl Azərbaycan torpağı idi. Ermənilər isə Cənubi Qafqaza gəlmə, daha doğrusu, gətirilmə etnosdur. bu etnosun yaşadığı "Ermənistan Respublikası" adlanan ərazi isə Azərbaycan torpağıdır. Azərbaycan xalqı yaşadıqca, bu həqiqət də yaşayacaqdır.

**Əziz Ələkbərli,**
*Qərbi Azərbaycan İcmasının İdarə heyətinin sədri,*
*Milli Məclisin deputatı*

Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı tarixi bir zərurətdir və bu, ədalətin bərpası, onların təməl hüquqlarının təmin edilməsi olacaq. Hər kəsin öz əzəli Vətənində yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda təsbit edilib. Bu gün artıq bu istiqamətdə hərtərəfli işlərə başlanılıb. Azərbaycan xalqı Müzəffər Ali Baş Komandanın qüdrəti, apardığı uğurlu xarici və daxili siyasəti sayəsində Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacağı günün uzaq olmadığına tam əmindir.

**İradə Hüseynova,**
*Professor, Əməkdar müəllim*